NAXÇIVAN MÜƏLLİMLƏR İNSTİTUTU

# “MÜASİR TƏHSİLİN İNKİŞAF STRATEGİYALARI: UĞURLAR VƏ ÇAĞIRIŞLAR”

*mövzusunda*
*Beynəlxalq elmi konfransının*
*materialları*

*26-27 noyabr 2021-ci il*

## Naxçıvan Müəllimlər İnstitutu
## Naxçıvan Dövlət Universiteti
## Azərbaycan Respublikasının Təhsil İnstitutu
## T-Network

# “MÜASİR TƏHSİLİN İNKİŞAF STRATEGİYALARI: UĞURLAR VƏ ÇAĞIRIŞLAR”

**mövzusunda**

**Beynəlxalq elmi konfrans**

# “DEVELOPMENT STRATEGIES OF MODERN EDUCATION: ACHIEVEMENTS AND CHALLENGES”

**International-scientific conference**

**Международная научная конференция на тему**

# «СТРАТЕГИИ РАЗВИТИЯ СОВРЕМЕННОГО ОБРАЗОВАНИЯ: УСПЕХИ И ВЫЗОВЫ”

*Naxçıvan şəhəri, 26-27 noyabr 2021-ci il*

*Nakhchivan city, November 26-27, 2021*

*Город Нахчыван, 26-27 ноября 2021 года*

**EMİL AĞAYEV**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində*
*Azərbaycan Dövlət Pedaqoji kolleci*
*magistr*
*E-mail:Emilaghayev93@mail.ru*

# SAĞLAMLIQ İMKANLARI MƏHDUD MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARLA TƏSVİRİ SƏNƏTİN TƏDRİSİ METODİKASI

*Hər bir insanın formalaşmasında incəsənətin mühüm rolu vardır. Təhsil, sənət və mədəniyyət formulu ilə yeni inkişaf etmiş nəsil formalaşdıraraq, uğurlu nailiyyətlər əldə etmək olar. Sağlamlıq imkanları məhdud uşaqlarda təhsilə, incəsənətə maraq oyatmaq cəmiyyətin, dövlətin xüsusilə marağında olmalıdır. Uğurlu tədris metodikası fiziki məhdud kiçik yaşlı uşaqların öz istedadını kəşf edərək, cəmiyyətdə özlərinin inkişafını qura bilərlər. Təsviri sənət fənni xüsusi psixoloji tədris metodologiyasına əsaslanmalıdır. Yaradıcılıq psixologiyasının mühüm rol oynaması qüsurlu insanlara sənət anlayışına meyilli olma bacarığını da inkişaf etdirir.*

**Açar sözlər:** *Təsviri sənət, rəng, metodika, təhsil, inkişaf*

Hər bir insanın formalaşmasında incəsənətin mühüm rolu vardır. Təhsil, sənət və mədəniyyət formulu ilə yeni inkişaf etmiş nəsil formalaşdıraraq, uğurlu nailiyyətlər əldə etmək olar. Kiçik yaşlardan başlayaraq inkişafın rüşeymi düzgün, dəqiq hədəflərlə yerinə yetirilməlidir. Sağlamlıq imkanları məhdud uşaqlarda təhsilə, incəsənətə maraq oyatmaq cəmiyyətin, dövlətin xüsusilə marağında olmalıdır. Zəifliyi ilə seçilən kiçik yaşlılarda incəsənətin ibtidai, düşüncəli formalara malik olan təsviri sənətin tədrisi metodikasının əhəmiyyətini vurğulamalıyıq. Xüsusilə sağlamlıq imkanları məhdud məktəbəqədər yaşlı uşaqlara təsviri sənətin tədrisi metodikasında pedaqoq yaradıcı və inkişafetməni əsas hədəf kimi seçməlidir. Uğurlu tədris metodikası fiziki məhdud kiçik yaşlı uşaqların öz istedadını kəşf edərək, cəmiyyətdə özlərinin inkişafını qura bilərlər.

Sağlamlıq imkanları məhdud məktəbəqədər yaşlı uşaqlarda ilk marağı sadə kompozisiyalarda hissiyyat yaratmaqdır. Xətt anlayışı insan düşüncəsi, psixologiyasına böyük təsir göstərir. İlkin anlayışdan sonra fiziki məhdudiyyətli uşaqlara təsir edən ikinci təsvir vasitəsi rəngdir. İsti və soyuq rənglərin sintezi kiçik yaşlı görmə qüsurlu uşaqlarda nöqtəvari predmet kimi görünür. Xüsusilə qeyd edək ki, görmə qabiliyyətini itirən insanların istedadının dəfələrlə şahidi olmuşuq. Hissetmə qabiliyyəti yüksək olması rəngin üzərinə düşən işıq bucağı onların psixologiyasında yaradıcı düşüncə hissi oyadır. Eşitmə qüsurlu məktəbəqədər yaşlı uşaqlarda rəngin ifadəliliyi ətraf aləmə yaradıcı baxışlarla, düşünmək, gördüyü predmetin rəngini qavramaq, kağız üzərinə ifadə etmək kimi bacarıqlarını inkişaf etdirir. Hətta dünya miqyaslı rəssamlardan eşitmə qabiliyyəti zəif olub, amma istedadı ilə seçilən məşhur olan sənətkarlar olmuşdur. Kiçik ikən eşitmə qabiliyyətini itirən Azərbaycan təsviri sənətinin formalaşmasında mühüm rolu olan Bəhruz bəy Kəngərli özünün xəyal aləminə qapılaraq, bütün vaxtını rəsmlər işləyirdi. Təsviri sənətə olan maraq onları ətraf aləmin səsindən ayıraraq, rəng aləminə qovuşdurur. Nitq qüsurlu məktəbəqədər yaşlı uşaqlarda rəngin oyatdığı təəssürat onların ifadə etməkdə çətinlik yaratdıqlarını dərhal kağız üzərinə köçürür. Əqli cəhətdən geri qalan uşaqlarda rəng daha çox çılğınlıq yaradır. Həyəcan, dinamika, dəlisovluq rəngin predmet üzərindəki oyatdığı təəssürata bağlılıq bu kateqoriyadan olan uşaqlarda vacibdir.

Sağlamlıq imkanları məhdud məktəbəqədər yaşlı uşaqların inkişafında, həmçinin sadə heykəltəraşlıq ənənələrinə maraq da mühüm rol oynayır. Qüsurlu kiçik yaşlılarda əsas plastilinlə yapma işlərinə diqqətin ayırılması pedaqoqun fərdi metodikasının inkişafına gətirib çıxaracaq. Görmə qüsurlu uşaqlarda plastilində olan incəlik, eşitməsi zəif kiçik yaşlı məktəbəqədərlərdə isə dinamikliyi görə bilərik. Bu iki kateqoriyadan olan insanların sənət meylləri bir-birinə yaxın olan sənət baxışlarına malikdir. Nitq qüsurlu məktəbəqədər yaşlılarda təsviri sənətin bu növünə olan

meyil plastik formanı əldə etdikdən sonra danışıq bacarığının inkişaf etməsi ilə başa salır. Ən həssas isə əqli cəhətdən geri qalan kiçik yaşlılarda formanın həcmində əziklik, deformasiya, həyəcan, onların daxili çılğınlığına əsaslanır.

Təsviri sənət fənni xüsusi psixoloji tədris metodologiyasına əsaslanmalıdır. Yaradıcılıq psixologiyasının mühüm rol oynaması qüsurlu insanlara sənət anlayışına meyilli olma bacarığını da inkişaf etdirir.

Sağlamlıq imkanları məhdud məktəbəqədər yaşlı uşaqlarda əsərlərə baxış ənənəsi də formalaşdırmaq təsviri sənətin metodologiyasında mühüm rol oynamalıdır. Pedaqoq onlara öz yaşlarına uyğun əsərlər seçməlidir. Görmə qüsurlu uşaqlarda kubizm cərəyanına aid olan sənət əsərlərinin göstərilməsi uyğundur, çünki hissələrə bölünmüş predmetlər rəng qammasına diqqətlərini cəlb edir. Öz daxili aləminə çəkilərək sakitliyi ilə seçilən eşitmə qüsurlu məktəbəqədər yaşlılara lirik üslublu əsərlərə üstünlük verilməlidir. Nitq qüsurlularda, əqli cəhətdən geri uşaqlarda isə abstrakt əsərlər tədris metodikasına gətirilməlidir.

Pedaqoqun üzərinə bu tip kiçik yaşlılarla işləmək böyük çətinlik yaradır. Həcm, forma, naxış və applikasiya sənəti ilə tanış olmaq qüsurlu kiçik yaşlılarda dərin bacarıq hissi yaradır. Natürmort və mənzərə janrına üstünlük verilməsi tədris metodikasında əsaslı yer tutmalıdır.

Sağlamlıq imkanları məhdud məktəbəqədər yaşlı uşaqlarla təsviri sənətin tədrisi metodikasının əsas təlim və inkişaf etdirmə üsulları aşağıdakılardır:

- Yaradıcı baxış
- Psixoloji yaradıcı təsir
- Yaradıcı düşüncə
- Yaradıcı bacarığın inkişafı
- Plastika vasitəsilə başa salma
- Rəng vasitəsilə başa salmaq
- Ətraf mühitin yaradıcı qavranılması
- Yaradıcı metodikadan geniş istifadə edilməsi.

## ƏDƏBİYYAT

1. Ağayev E. Orta məktəblərdə təsviri incəsənət fənninin tədrisi:problemlər və həllər //“Ümumi təhsildə kurikulum islahatları:nəticələr və perspektivlər-2020” mövzusunda respublika elmi-praktik konfransının materialları //Naxçıvan, 21 may 2020, s. 223-224.
2. Axundzadə L. XX əsr dünya təsviri incəsənəti. Bakı: Azərnəşr, 2011, 223 s.
3. Əliyev Z. Bəhruz bəy Kəngərli taleyi. Naxçıvan, 2017, 509 s.

**EMIL AGAYEV**

## SUMMARY

## HEALTH CAPABILITIES LIMITED PRESCHOOL AGE METHODOLOGY OF TEACHING FINE ARTS WITH CHILDREN

Art has an important role in the formation of every person. Successful achievements can be achieved by forming a new developed generation with the formula of education, art and culture. It should be in the special interest of the society and the state to arouse interest in education and art in children with disabilities. Successful teaching methods allow young children with physical disabilities to discover their talents and build their own development in society. The subject of fine arts should be based on a special psychological teaching methodology. The important role of creative psychology also develops the ability of people with disabilities to be inclined to the concept of art.

**Key words:** *Fine arts, color, methodology, education, development*

**ЭМИЛЬ АГАЕВ**

## РЕЗЮМЕ

## ВОЗМОЖНОСТИ ЗДОРОВЬЯ, ОГРАНИЧЕННЫЕ В ДОШКОЛЬНОМ ВОЗРАСТЕ МЕТОДИКА ОБУЧЕНИЯ ИЗОБРАЗИТЕЛЬНОМУ ИСКУССТВУ С ДЕТЯМИ

Искусство играет важную роль в формировании каждого человека. Успешных достижений можно добиться, сформировав новое развитое поколение с формулой образования, искусства и культуры. Пробуждать интерес к образованию и искусству у детей с ограниченными возможностями должно быть в интересах общества и государства. Успешные методы обучения позволяют маленьким детям с ограниченными физическими возможностями раскрыть свои таланты и построить собственное развитие в обществе. Предмет изобразительного искусства должен основываться на специальной психологической методике обучения. Важная роль творческой психологии также развивает способность людей с ограниченными возможностями быть склонными к пониманию искусства.

**Ключевые слова:** *изобразительное искусство, цвет, методика, образование, развитие*